

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 232 (23.874)

14 dekabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 18 il keçir. Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər. Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoyub. Azərbaycanın Dövlət Himni səsləndirilib. Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoyublar. Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edilib, məzarları üstünə gül dəstələri düzülüb.

***

Dekabrın 13-də Prezident İlham Əliyev UEFA Konfrans Liqasında pley-off mərhələsinə yüksələn “Qarabağ” futbol klubunun üzvlərini qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün dekabrın 13-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfərə gəlib.



## Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin xatirəsi yad edilib





Dekabrın 12-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, nazirlik, komitə, xidmət və baş idarələrin, müəssisə və təşkilatların, ali məktəblərin, hərbi hissələrin nümayəndələri, Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş konsulu və konsulluğun işçiləri, İran İslam Respublikasının Naxçıvan Muxtar Respublikasındakı Baş Konsulluğunun əməkdaşı və Türkiyə Silahlı Qüvvələrinin Azərbaycan Respublikasındakı hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi də ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər.

Azərbaycanın müstəqil və inkişaf etmiş dövlət kimi dünyada söz sahibi olması görkəmli dövlət xadimi Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsidir. ***“Mənim üçün öz həyatımdan, öz canımdan artıq Azərbaycanın müstəqilliyini qorumaq, onu saxlamaq, onu əbədi etməkdir”***, – deyən dahi şəxsiyyət dövləti və xalqı qarşısındakı xidmətləri, parlaq ideyaları və uzaqgörən siyasəti ilə hələ sağlığında xalqının ümummilli lideri adını qazanmışdır.

Ulu öndərin 1969-cu il iyulun 14-də respublika rəhbərliyinə gəlişi ilə, əslində, Azərbaycanın müstəqillik tarixinin əsası qoyulmuşdur. 1969-1982-ci illərdə ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycanda böyük iqtisadi tədbirlər reallaşdırılmış, istehsal müəssisələri, zavodlar, fabriklər tikilmiş, təhsil, səhiyyə, mədəniyyət ocaqları fəaliyyətə başlamış, xalqımızın tarixi yaddaşı bərpa edilmişdir. Bu mənada, dövlət müstəqilliyimizin əsasında ulu öndərin ötən əsrin 70-80-ci illərində yaratdığı möhkəm təməl, güclü intellektual və iqtisadi potensial, milli ruh dayanırdı.

Heydər Əliyev – xalq, xalq – Heydər Əliyev birliyi hər zaman Azərbaycanı üzləşdiyi bəlalardan xilas etmişdir. Ümummilli liderimizin



Azərbaycan naminə fəaliyyətinin 1990-cı ildən sonrakı mərhələsi xilaskarlıq və qurucu; luq missiyasına həsr edilmişdir. Bu missiyanın öz başlanğıcını götürdüyü məkan isə Azərbaycanın Naxçıvan Muxtar Respublikasıdır. 1990-1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərən ulu öndər müstəqilliyimizin əsasını təşkil edən mühüm tarixi qərarlar qəbul etmiş, muxtar respublikanın erməni təcavüzündən xilas edilməsi, böhranlı vəziyyətdən çıxarılması və müstəqil dövlətçilik ənənələrinin formalaşdırılması istiqamətində tarixi addımlar atmışdır. Dahi şəxsiyyətin uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından “sovet, sosialist” sözləri çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı dövlət bayrağı kimi qəbul edilmiş, milli ordu quruculuğuna başlanmış, Naxçıvan işğaldan qorunmuşdur.

Ölkəmiz isə həmin illərdə bunun əksinə hakimiyyətsizlik, vətəndaş qarşıdurması, dövlət müstəqilliyini itirmək, işğal və parçalanmaq təhlükəsi ilə üz-üzə idi. Belə bir dövrdə xalqımız ümid yeri kimi Naxçıvana – ümummilli liderimiz Heydər Əliyevə üz tutdu, onu təkidlə siyasi hakimiyyətə qayıdışında gördü. Bu qayıdış Milli Qurtuluş Günü kimi tarixə düşdü.

Görkəmli dövlət xadimi Heydər Əliyevin şəxsiyyəti, onun özünəməxsus siyasi idarəetmə qabiliyyəti, qətiyyəti, uzaqgörənliyi Azərbaycanı hərc-mərclikdən, müstəqilliyini itirmək təhlükəsindən xilas edərək hərtərəfli inkişaf yoluna çıxardı. Azərbaycanda vətəndaş qarşıdurmasına birdəfəlik son qoyuldu, ölkəmiz xaosdan, siyasi çəkişmələrdən, işğal və parçalanmaqdan, sosial-iqtisadi böhrandan xilas oldu. Əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın həmrəyliyi, milli birliyi təmin edildi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“İnsan tarixə öz əməlləri ilə düşür. Heydər Əliyev tarixin böyük bir hissəsidir. Onun əməlləri, bütün təşəbbüsləri bir məqsəd daşıyırdı – Azərbaycan xalqına xidmət etmək, ölkəmizi gücləndirmək, müstəqilliyimizi möhkəmləndirmək, ölkəmizdə demokratik cəmiyyət qurmaq”.***

Ümummilli lider Heydər Əliyev tarix yaradan fenomen şəxsiyyətdir. Bu mənada, ulu öndərin həyatı və siyasi fəaliyyəti Azərbaycan xalqının mənəvi sərvətidir. Bu sərvəti qorumaq və ondan doğma Vətənimiz Azərbaycanın rifahı naminə yararlanmaq isə hər bir azərbaycanlının borcudur.

Bu gün ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin nəticəsidir ki, 30 ilədək işğal altında olan torpaqlarımız 44 gün ərzində müzəffər ordumuz tərəfindən düşmən tapdağından azad edildi. Bununla həm tarixi ədalət bərpa olundu, həm də ***“Azərbaycan müstəqil dövlətdir, müstəqil dövlət kimi onun ərazi bütövlüyü, sərhədlərinin toxunulmazlığı bərpa edilməli, təmin edilməli və qorunmalıdır”***, – deyən ümummilli liderimizin arzuları reallaşdı.

Ulu öndər Heydər Əliyev ideyaları və yolu Naxçıvanda da inkişafın əsasını təşkil edir. Muxtar respublikada bu siyasətin uğurla davam etdirilməsi nəticəsində quruculuq işləri geniş vüsət almış, iqtisadiyyat dinamik inkişaf etmiş, infrastruktur yenilənmiş, sosial proqramlar qəbul edilərək icra olunmuş, muxtar respublikanın enerji və ərzaq təhlükəsizliyi təmin edilmiş, etibarlı müdafiə sistemi yaradılmışdır.

İnkişaf, milli birlik və həmrəylik, güclü dövlət və müstəqillik ümummilli liderimizin

Ardı 2-ci səhifədə

siyasi fəaliyyətinin əsas qayəsini təşkil edirdi. Zaman keçdikcə, illər ötdükcə dahi Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü daha dərindən dərk edirik. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Müstəqil Azərbaycan cəmiyyətində inkişafın bir hərəkətverici qüvvəsi var: bu – Heydər Əliyev ideyalarıdır. Heydər Əliyev yoluna sadiq qalan xalqımız özünün milli liderinin ideyalarını yaşatdıqca, onun zəngin xəzinəsindən bəhrələndikcə, daim irəliyə gedəcək, yaşayacaq və rifaha qovuşacaqdır”.***

Müdriklər deyir ki, Vətənə və xalqa həsr olunmuş ömür bitmir. Ümummilli liderimiz də deyirdi ki: ***“Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!”***

Həmin gün muxtar respublikanın bütün rayon mərkəzlərində də ümummilli liderimizin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Naxçıvanda plastik məmulatlar istehsalı sahəsi fəaliyyətə başlayıb



Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***“Biznes mühitinin yaxşılaşdırılması, sahibkarlığın inkişafı, yeni iş yerlərinin yaradılması – bütün bunlar dövlət siyasətimizin tərkib hissəsidir”.*** “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikada sahibkarlıq inkişaf etdirilir, yeni müəssisələr yaradılır, tələbatın yerli istehsal hesabına ödənilməsi diqqətdə saxlanılır.

Dekabrın 13-də “Naxplast” Məhdud Məsuliyyətli Cəmiyyətinin plastik məmulatlar istehsalı sahəsi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir ki, bu ilin ötən dövründə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 139 layihəyə 3 milyon 826 min manat güzəştli kreditlər ayrılmış, 106 istehsal və xidmət sahəsi istifadəyə verilmiş, 50 istehsal və xidmət sahəsinin yaradılması davam etdirilmişdir. Bu gün istifadəyə verilən polietilen məmulatlar istehsalı sahəsi də rəqabətədavamlı məhsul istehsal etməklə iqtisadi inkişafa mühüm töhfə verəcəkdir.





Cəmiyyətin polietilen məhsulların istehsalı üzrə layihəsi ekspertiza edilərək müsbət qiymətləndirilmiş, fəaliyyətin stimullaşdırılması məqsədilə investisiya təşviqi sənədi verilmişdir. Müəssisə daxili tələbatı keyfiyyətli yerli məhsullar hesabına ödəyəcəkdir. İstehsal olunan məhsulların ölkəmizin digər regionlarına da satışı nəzərdə tutulmuşdur. Tapdıq Əliyev muxtar respublika sahibkarları adından yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Müəssisədə işlə təmin olunan operator Səkinə Məmmədova kollektiv adından minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Yeni müəssisənin məhsulları həm məişətdə, həm də sənayedə və kənd təsərrüfatında geniş istifadə olunacaqdır. Muxtar respublikada plastik məmulatlara olan tələbat idxal hesabına həyata keçirilirdi. Lakin müəssisənin fəaliyyətə başlaması ilə tələbat tam yerli istehsal hesabına ödəniləcək və ixrac imkanları yaranacaqdır. Müəssisənin vacibliyi nəzərə alınaraq sahibkara dəstək verilmiş, Sahibkarlığın İnkişafı Fondu tərəfindən kredit ayrılmış, bir sözlə, müəssisə sahibkarın və dövlətin vəsaiti hesabına yaradılmışdır. Nəticədə, həm yeni iş yerləri açılmış, həm də daxili bazar qorunmuşdur.

Ali Məclisin Sədri müəssisənin qurulmasında əməyi olanlara və təşkilatçılara təşəkkürünü bildirərək demişdir: Sənaye müəssisələri, ilk növbədə, daxili bazarı yerli istehsal məhsulları ilə təmin etməlidir. Bu gün ölkəmizdəki sabitlik və inkişaf, sahibkarlara göstərilən dövlət qayğısı, verilən kreditlər və daxili bazarın qorunması




imkan verir ki, yeni sahibkarlar formalaşsın, kiçik müəssisələr inkişaf edərək böyük sənaye müəssisələrinə çevrilsinlər. Plastik məmulatlar istehsalı müəssisəsinin qurulması da yeni iş yerlərinin açılması ilə yanaşı, muxtar respublikada bu sahə üzrə mütəxəssislərin formalaşmasına da imkan verəcəkdir. Həmçinin muxtar respublikada bu sahədə əvvəllər tullantı formasında olan məhsullar yenidən xammal kimi təkrar istehsala cəlb olunacaqdır. Bu da ekoloji baxımdan mühüm əhəmiyyət daşıyır.

Ali Məclisin Sədri demişdir: Muxtar respublikada yerli xammalla işləyən sənaye müəssisələrinin yaradılmasına üstünlük verilir. Ona görə ki, müəssisənin daşıma xərcləri azalır, keyfiyyətli və ucuz məhsul istehsal olunur. Hazırda muxtar respublikada yerli xammala əsaslanan yeni duz və bitki yağlarının istehsalı müəssisələri qurulur. Plastik məmulatlar istehsalı müəssisəsinin xammalının müəyyən hissəsi xarici ölkələrdən və Bakı şəhərindən gətiriləcək, digər hissəsi isə təkrar istehsal hesabına təmin ediləcəkdir. Ona görə də Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi müəssisənin bundan sonra rentabelli işləməsi üçün tədbirlər görməli, daxili bazar qorunmalıdır. Müəssisə isə fəaliyyətini elə qurmalıdır ki, daxili bazarı təmin etməklə yanaşı, ixrac imkanları da olsun. Xarici bazarlar araşdırılmalı, istehsal olunan məhsulların ixracı təmin edilməlidir. Çünki ixrac imkanı olmayan müəssisə gələcəkdə öz fəaliyyətini genişləndirə bilməz.

Ali Məclisin Sədri kollektivi təbrik etmiş və müəssisəni işə salmışdır.

Məlumat verilmişdir ki, yeni müəssisə sənaye sahəsində idxaldan asılılığın azaldılması, ixrac potensialının artırılması və yeni iş yerlərinin açılmasına imkan verəcəkdir. Müəssisədə Türkiyə istehsalı olan müasir avadanlıqlar quraşdırılmış, 30 nəfər işlə təmin olunmuşdur. İllik istehsal gücü 1440 ton olan müəssisədə polietilen şirinq, masa örtüyü, müxtəlif polietilen torbalar olmaqla, 15 çeşiddə məhsul istehsal olunacaqdır. İstehsal sahəsi ilə yanaşı, müəssisədə hazır məhsul və xammal anbarı, yeməkxana, mətbəx, 5 iş otağı, avtomobil dayanacağı və digər xidmət otaqları yaradılmışdır.

Müəssisənin fəaliyyətə başlaması məşğulluğun təmin olunması və daxili tələbatın ödənilməsi ilə yanaşı, həm də bu sahədə yerli mütəxəssislərin formalaşmasına da şərait yaradacaqdır. Müəssisə polietilen tullantıların təkrar istifadəsini təmin etməklə isə ekoloji təmizliyin qorunmasına töhfə verəcəkdir.

Ərazidə təhlükəsizlik kameraları və yanğından mühafizə sistemi quraşdırılmış, müəssisə 2 yük avtomobili və 1 avtoyükləyici ilə təmin olunmuşdur.

Sahibkar Ceyhun Abdullayev yaradılan şəraitə görə minnətdarlıq etmiş, daha səylə çalışacaqlarını bildirmişdir.

Ali Məclisin Sədri müəssisədə istehsal olunan məhsulların keyfiyyətinə nəzarət olunması, məhsul çeşidinə diqqət yetirilməsi, plastik tullantıların yığılaraq müəssisəyə təhvil verilməsinə köməklik göstərilməsi və yeni istehsal sahələrinin yaradılması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

# Muzey ekskursiyaları davam edir



“Muzey günləri” çərçivəsində Naxçıvan Dövlət Universitetinin kollektivi Naxçıvan Dövlət Rəsm Qalereyası və Miniatür Kitab Muzeyində olub. Ekskursiya zamanı bələdçi Alsu Mikayılova Heydər Əliyev Sarayında muzeytipli müəssisə kimi fəaliyyət göstərən Naxçıvan Dövlət Rəsm Qalereyası haqqında məlumat verərək bildirib ki, bu mədəniyyət ocağı 1982-ci ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılıb. Qalereyanın fondunda 150-dən çox rəssamın 500-ə yaxın əsəri var, hazırda ekspozisiya zalında 100-ə yaxın rəsm əsəri nümayiş etdirilir. Ekspozisiyanın I guşəsini ulu öndər Heydər Əliyevə həsr olunmuş rəsm əsərləri və büstlər təşkil edir. Digər guşə görkəmli fırça ustaları tərəfindən mənzərə və kompozisiya janrında çəkilən əsərlərə həsr olunub. Qalereyanın növbəti guşəsi yerli və xarici ölkə rəssamlarının festivallarda çəkərək qalereyaya təqdim etdikləri rəsm əsərlərindən ibarətdir. Nəzərə çatdırılıb ki, sonuncu guşədə naxçıvanlı rəssamların müxtəlif janrlarda çəkilmiş dəyərli rəsm əsərləri nümayiş olunur. Ali təhsil ocağının əməkdaşlarının da əsərlərinin nümayiş edildiyi qalereyaya universitetin İncəsənət fakültəsinin dekanı, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovun müəllifi olduğu “Doğma diyar” əsəri hədiyyə olunub.

Heydər Əliyev Sarayında yerləşən Miniatür Kitab Muzeyində olan qonaqlara məlumat verilib ki, miniatür kitab kolleksiyalarının müəllifi Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filoloq, miniatür Zərifə Salahovadır. Onun müəllifi olduğu kolleksiya 2015-ci ildə “Ginnesin Rekordları Kitabı”na düşüb. Vurğulanıb ki, Miniatür Kitab Muzeyi ölkəmizdə III filial kimi fəaliyyət göstərir. 1086 nüsxə miniatür kitabın nümayiş olunduğu muzeydə 31 ölkənin bayrağı, 15 vitrindən ibarət müxtəlif kitablar, foto və diplomları sərgilənir. Burada, həmçinin ölkədə nəşr edilən mini, mikro və nadir, dini miniatür, keçmiş SSRİ-nin müttəfiq respublikalarında və Rusiya Federasiyasında 1991-ci ildə nəşr edilən kitablar, habelə məşhur şəxsiyyətlərin avtoqrafları olan miniatürlər nümayiş etdirilir.

Diqqətə çatdırılıb ki, muzeydə ümummilli lider Heydər Əliyevin fəaliyyətini əks etdirən kitablar, o cümlədən müstəqil Azərbaycanın daxili və xarici siyasətində baş verən mühüm tarixi hadisələr haqqında kitablar yer alır. Muzeydə, həmçinin Azərbaycan ədəbiyyatının klassikləri, elm və incəsənət xadimləri, şair, yazıçı, alimləri və bir çox görkəmli şəxsiyyətlər haqqında kitablar da sərgilənir. Qeyd edilib ki, muzeyin ən kiçikölçülü kitabı 3 dildə çap olunan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Olimpiada andı” kitabıdır.

***Naxçıvan Dövlət Universitetinin***
***Televiziya, mətbuat və***
***ictimaiyyətlə əlaqələr bölməsi***

# Ulu öndərin əziz xatirəsi muxtar respublikamızın bütün rayonlarında böyük hörmətlə anılmışdır

## Şərur rayonu



Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə sosial-iqtisadi inkişafı diqqət mərkəzində saxlanılan bölgələrimizdən biri də qədim Şərurdur. Bu dövrdə Şərur rayonunda genişmiqyaslı tikinti-quruculuq, abadlıq tədbirləri həyata keçirilmiş, onlarca məktəblər, xəstəxanalar, mədəniyyət müəssisələri tikilib istifadəyə verilmiş, ulu öndərin bilavasitə rəhbərliyi və daimi nəzarəti ilə yaradılan Arpaçay Su Anbarı on minlərlə hektar əkinəyararlı sahənin suvarılmasına imkan vermişdir. Respublikamızda savadlı, bacarıqlı kadrların hazırlanması, mədəniyyətin və incəsənətin inkişafı, milli-mənəvi sərvətlərin, tarixi abidələrin qorunması, muzeylərin təşkili sahəsində ümummilli liderin həyata keçirdiyi ardıcıl tədbirlərdən də Şərur rayonuna xeyli pay düşmüşdür. Qarxun kəndində dəmir-beton konstruksiyaları zavodunun və qum-çınqıl karxanasının, Oğlanqala və Xələc kəndlərində mərmər sexlərinin, Sədərək, Maxta, Düdəngə, Xanlıqlar kəndlərində üzümün ilkin emalı ilə məşğul olan 6 şərab zavodunun, Radioquraşdırma Bakı İstehsalat Birliyi Şərur filialının, müasir çörək zavodunun və digər sənaye müəssisələrinin işə salınması, yeni xidmət şəbəkələrinin yaradılması, aqrar sahədə həyata keçirilən uğurlu islahatlar rayonun iqtisadiyyatının və buna müvafiq olaraq əhalinin maddi rifah halının xeyli yüksəlməsinə stimul olmuşdur. Ötən əsrin yetmişinci-səksəninci illərində rayonda yol infrastrukturu da yenilənmiş, körpülər salınmış, meliorasiya və irriqasiya tədbirləri həyata keçirilmişdir.

Sevindirici haldır ki, ümummilli liderin başladığı bu işlər ulu öndərin layiqli davamçısı Prezidentimiz cənab İlham Əliyev tərəfindən Azərbaycanın bütün bölgələrində, həmçinin muxtar respublikamızda, eləcə də Şərur rayonunda daha geniş şəkildə və müasir dövrün tələblərinə uyğun davam etdirilir. Şərurlular 1969-1985-ci illərdə və 1993-cü ildən sonrakı on ildə həyata keçirilən tədbirləri bu gün də minnətdarlıq hissi ilə xatırlayırlar.

Dekabrın 12-də şərurlular ulu öndərin əzəmətli abidəsi önünə gələrək tər çiçəklər qoymuş, dahi və unudulmaz rəhbərə sonsuz məhəbbətlərini bir daha ifadə etmiş, onun siyasətini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birliklərini nümayiş etdirmişlər.

## Babək rayonu



Muxtar respublikamızın iri yaşayış məntəqələrindən olan Babək rayonunun yaranması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

Hələ Azərbaycana rəhbərliyinin birinci dövründə respublikanın ucqar rayonlarının iqtisadiyyatını möhkəmləndirmək siyasətinin nəticəsi kimi 1978-ci il oktyabrın 23-də təşkil olunmuş bu rayona mərkəzi hakimiyyətin iradəsinin əksi olaraq "Babək" adının verilməsi ulu öndərimizin milli tariximizin və milli yaddaşın bərpası istiqamətində apardığı taleyüklü tədbirlərin davamı idi. Ötən dövr ərzində dahi şəxsiyyətin müəyyən etdiyi sabitlik və inkişaf yoluna göstərilən dərin sədaqətin nəticəsində rayonun yaşayış məntəqələri başdan-başa yenidən qurulub, infrastruktur yenilənib, qaz, elektrik, yol, rabitə ilə bağlı problemlərə birdəfəlik son qoyulub. Bu gün Babək rayonunun düşmənlə təmas xəttində yerləşən Gərməçataq, Aşağı və Yuxarı Buzqov kəndlərində yaradılan şərait ucqar dağ kəndlərində məskunlaşmanın artmasına imkan verib.

Babək rayonunda aparılan abadlıq-quruculuq işləri hər il davamlı xarakter alır. 2021-ci ildə rayonun Araz və Göynük kəndlərində yeni sosial obyektlər sakinlərin istifadəsinə verilib. Kompleks quruculuq tədbirləri çərçivəsində hər iki kənddə müasir məktəb, kənd və xidmət mərkəzləri inşa olunub, yol infrastrukturu tamamilə yenilənib, sakinlərin gündəlik qayğıları həll edilib. Qeyd etmək yerinə düşər ki, hazırda rayonun Sirab kəndində məktəb binası əsaslı yenidən qurulur. Bundan başqa, cari ildə rayonun Cəhri qəsəbəsində müasir layihə əsasında yenidən tikilən tarixi məscid də dindarların istifadəsinə verilib.

Dekabrın 12-də Babək rayonunda dahi şəxsiyyətin anım günü ilə əlaqədar olaraq keçirilən mərasimdə rayon İcra Hakimiyyəti başçısı aparatının, idarə, müəssisə və təşkilatların kollektivləri xalqımızın böyük oğlunun əzəmətlə ucalan abidəsini ziyarət edib, xatirəsini dərin ehtiramla anıblar.

## Ordubad rayonu

Dekabrın 12-də Ordubad rayonunun idarə, müəssisə və təşkilatlarında çalışanlar da müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin Ordubad şəhərindəki büstünün önünə gül qoymuş, ulu öndərin xatirəsini dərin ehtiramla yad etmişlər.



Ulu öndər Heydər Əliyevin "Azərbaycanın incisi" adlandırdığı Ordubad, demək olar ki, tamamilə yenidən qurulub. İstifadəyə verilən 22 meqavatlıq Biləv Su Elektrik Stansiyası bu gün muxtar respublikamızın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayır. Ordubad şəhərində və kəndlərimizdə həyata keçirilən kompleks quruculuq işləri nəticəsində təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə misli görünməmiş irəliləyişlər baş verib. Eləcə də qədim tarixi-memarlıq abidələrimizin, muzeylərimizin, çeşmə və bulaqlarımızın əsaslı surətdə təmir-bərpa olunması isə dövlətimizin milli-mənəvi dəyərlərimizə nə qədər önəm verdiyini göstərir. İnşa olunan Culfa-Ordubad magistral avtomobil yolu da əhalinin rahatlığının təmin olunmasına yönəlib. Bu il Nüsnüs, Dırnıs, Aşağı Əndəmic, Yuxarı Əndəmic kəndlərində kompleks quruculuq işləri həyata keçirilib. Ordubad şəhərində isə 1 nömrəli tam orta məktəbin və rayon Uşaq Xəstəxanasının binaları əsaslı surətdə yenidən qurularaq istifadəyə verilmiş, şəhər stadionunun inşası tamamlanmış, Ordubad şəhərində və Şəhriyar qəsəbəsində içməli su və təsərrüfat suyu xətləri yenilənmişdir. Hazırda rayonun Vələver, Kələki, Unus, Pəzməri kəndlərində aparılan quruculuq işləri yekunlaşmaq üzrədir, Ordubad və Tivi Su Elektrik stansiyalarının tikintisi aparılır, qədim Cümə məscidində isə əsaslı surətdə təmir-bərpa işləri davam etdirilir. Bütün bunlara isə ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulan ideyaların Naxçıvan Muxtar Respublikasında yaşadılıb inkişaf etdirilməsi nəticəsində nail olunub.

## Culfa rayonu

Respublikamızın bütün bölgələrində olduğu kimi, Culfa rayonunda da ümummilli liderin anım günündə idarə, müəssisə və təşkilatların nümayəndələri ulu öndərin xatirəsinə ehtiramlarını bildirmişlər.



Bu gün Culfa rayonu da muxtar respublikada aparılan abadlıq-quruculuq tədbirləri nəticəsində gözəl məkana çevrilmişdir. Bir-birindən yaraşıqlı inzibati və yaşayış binaları, parklar, abad prospekt və küçələr, həm şəhərdaxili, həm də rayonun kəndləri arasında salınmış asfalt yollar sakinlərin istifadəsinə verilmişdir.

İyunun 18-də Naxçıvan Muxtar Respublikasında ilk dəfə olaraq Culfa rayonunda Külək-Günəş Hibrid Elektrik Stansiyasının – yeni tip stansiyanın istifadəyə verilməsi həm də qədim diyarda innovativ layihələrin həyata keçirilməsi baxımından diqqət çəkir. Cari ilin noyabr ayı rayonun tarixinə növbəti quruculuq ərməğanları ilə yazılmış, noyabrın 11-də Culfa şəhərində yeni inzibati bina istifadəyə verilmiş, Gigiyena və Epidemiologiya Şöbəsi və digər dövlət qurumları üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Culfa şəhərindəki E.Nağıyev küçəsi və ona bitişik C.Məmmədquluzadə, Ş.İ.Xətai və M.Müşfiq küçələrində əsaslı yenidənqurma işləri aparılmış, 3,4 kilometrlik avtomobil yolu yenidən qurulmuşdur. Noyabrın 11-də Culfa şəhərində 3 mərtəbəli, 18 mənzilli yaşayış binası yenidənqurmadan sonra istifadəyə verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası ilə bağlı 2021-ci ilin ötən dövründə rayonun Ləkətağ kəndində "Ləkətağ kənd yaşıl turizm" istirahət sahəsinin yaradılması ilə bağlı tədbirlərə başlanılıb.

İndi fəxrlə demək olar ki, Culfa bu gün muxtar respublikanın inkişaf etmiş rayonları sırasındadır. Burada inkişaf və yüksəliş davamlı xarakter alıb və sakinlərin yaşayış səviyyəsi daha da yüksəlib, onların sabaha olan inamı artıb. Təbii ki, görülən işlər rayonun sakinləri tərəfindən minnətdarlıqla qarşılanır, xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilir.

## Kəngərli rayonu

Dekabrın 12-də ümummilli liderimiz Heydər Əliyevin əziz xatirəsi muxtar respublikamızın hər yerində olduğu kimi, Kəngərli rayonunda da böyük ehtiramla yad edilmişdir. Həmin gün idarə, müəssisə və təşkilatların rəhbərləri ulu öndərimizin rayon mərkəzində əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoymuş, müstəqil Azərbaycanın qurucusunun xatirəsini dərin ehtiramla yad etmişlər.



Heydər Əliyev ideyalarının muxtar respublikamızda uğurla həyata keçirilməsi nəticəsində Kəngərli rayonunda mühüm infrastruktur layihələri reallaşdırılmış, Kəngərlinin sosial-iqtisadi həyatında əsaslı dəyişikliklər baş vermişdir. Bölgədə aparılan quruculuq və abadlıq işlərinin davamı olaraq Qıvraq qəsəbəsi burada həyata keçirilmiş yeni infrastruktur layihələri nəticəsində öz görkəmini əsaslı şəkildə dəyişərək müasir rayon mərkəzinə çevrilmişdir. İndi bu adıçəkilən məkanda ümummilli lider Heydər Əliyevin abidəsi, bir-birindən gözəl inzibati binalar, mədəniyyət və istirahət parkı, gözəl memarlıq quruluşuna malik mədəniyyət evi və digər qurucu luq ünvanları rayon mərkəzinin simasına əsl gözəllik qatır.

Yaradılmış münbit şərait aqrar bölgə olan Kəngərlidə kənd təsərrüfatının da sürətli inkişafına təkan vermişdir. Aqrar sahənin inkişafına göstərilən dövlət dəstəyi sayəsində rayonda min hektarlarla torpaq sahəsi əkin dövriyyəsinə qatılmışdır. Noyabrın 8-də – Zəfər Günündə dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisi, qələbənin simvolu kimi istifadəyə verilən Kəngərli Rayon Bayraq Meydanında üçrəngli dövlət bayrağımız həm də ümummilli lider Heydər Əliyevin müstəqillik ideyalarının gerçək təzahürü kimi dalğalanmaqdadır.

Rayonda inkişaf və yüksəliş davamlı xarakter almış və sakinlərin əhvali-ruhiyyəsi də yaradılan şərait hesabına daha da yüksəlmiş, insanların sabaha olan inamı artmışdır. Bu inkişaf, müasirlik və yeniləşmə ümummilli lider Heydər Əliyevin ideyalarının uğurla davam etdirilməsinin nəticələridir.

## Şahbuz rayonu



Şahbuz rayonunun idarə, müəssisə və təşkilatlarının nümayəndələri ulu öndər Heydər Əliyevin Şahbuz Rayon İcra Hakimiyyətinin binası qarşısında ucalan abidəsinin önünə gələrək əziz xatirəsini ehtiramla yad etmişlər.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə başlıca qayəsini müstəqillik, Azərbaycançılıq, dövlətçilik, demokratiya, milli tərəqqi, dünyəvilik kimi dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyulmuşdur.

Qədim Naxçıvanda da bu ideologiyaya böyük ehtiram göstərilir. Bunun ifadəsidir ki, bu gün diyarımızın hər bir bölgəsi, o cümlədən Şahbuz rayonu da müasirlik donundadır. Hər ilə ayrı-ayrı ünvanlarda müxtəlif istiqamətli tikinti-quruculuq tədbirləri həyata keçirilir, ərzaq təhlükəsizliyinin təmin olunması üçün məhsul istehsalının artırılması diqqət mərkəzində saxlanılır.

Rayonun iqtisadiyyatının əsasını təşkil edən aqrar sahənin inkişafı məqsədilə göstərilən dövlət qayğısından hərtərəfli istifadə edən torpaq mülkiyyətçiləri torpaqların hər qarışının əkilməsinə maraq göstərirlər. Rayonda meliorasiya və irriqasiya tədbirlərinin aparılmasına ehtiyacı olan və istifadə edilməyən əkinəyararlı torpaq sahələrinin də müəyyənləşdirilməsi, xəritələşdirilməsi işlərinin uğurla icrası bu sahənin inkişafında mühüm rol oynayıb. Türkeş, Badamlı, Ayrınc, Külüs, Nursu, Sələsüz, Mahmudoba və Şahbuzkənd ərazilərində bu məqsədlə xeyli işlər görülüb, nəticədə, uzunmüddətli əkilməyən əkinəyararlı torpaq sahələri əkin dövriyyəsinə qatılıb.

Görülən bütün işləri şahbuzlular unutmur, ulu öndərin xatirəsini daim uca tuturlar.

## Sədərək rayonu

Sədərək rayonunun yaradılması, inkişafı və tərəqqisi bilavasitə ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Bu bölgə rayon kimi muxtar respublikanın inzibati ərazi bölgüsünə 1990-cı il avqustun 28-də daxil edilmişdir. Rayon mərkəzi Heydərabad qəsəbəsinin əsası hələ ümummilli liderin Azərbaycana birinci rəhbərliyi dövründə qoyulmuşdur. Ötən əsrin 90-cı illərində Sədərək mənfur ermənilər tərəfindən mütəmadi hücumlara məruz qalmışdı. Naxçıvanın qala qapısı sayılan bu bölgədə 1990-1993-cü illərdə ağır döyüşlər getmişdir. Həmin illərdə buradakı ağır vəziyyətlə bilavasitə tanış olan ümummilli lider Heydər Əliyev bu hücumların qarşısının alınması üçün misilsiz xidmətlər göstərmiş, dünya ölkələrinin diqqətini burada baş verən hadisələrə yönəltmişdir. Dahi şəxsiyyətin böyük nüfuzu, uzaqgörən siyasəti nəticəsində düşmən hücumlarının qarşısı qətiyyətlə alınmış, rayonun müdafiəsi üçün mühüm addımlar atılmışdır.



Ümummilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olduğu dövrdə rayonun sosial-iqtisadi inkişafının təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. 1 qəsəbə və 4 kənd yaşayış məntəqəsindən ibarət olan Sədərək rayonu ötən dövrdə böyük inkişaf yolu keçərək hərtərəfli tərəqqiyə qovuşmuşdur. Rayonda 5 ümumtəhsil məktəbi, 1 uşaq musiqi məktəbi, 2 uşaq bağçası, 3 səhiyyə müəssisəsi, 4 mədəniyyət, 2 idman obyekti, 2 kənd, 1 rayon mərkəzi stadionu tikilərək istifadəyə verilmişdir. Rayon mərkəzi Heydərabad qəsəbəsinin siması büsbütün dəyişmiş, yeni park və küçələr salınmış, yaşıllıqlar yaradılmış, rayonun bütün daxili yolları abadlaşdırılmışdır. Heydərabad qəsəbəsində 7 mərtəbəli 48 mənzilli yaşayış binası, Bayraq Meydanı, Radio-Televiziya Ötürücü Stansiyası tikilib istifadəyə verilmişdir.

Dekabrın 12-də Sədərək rayonunda ümummilli lider Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilmişdir. İdarə, müəssisə və təşkilat kollektivləri, ictimaiyyət nümayəndələri dahi şəxsiyyətin Heydərabad qəsəbəsindəki büstünü ziyarət etmiş, önünə tər güllər düzmüşlər.

**Xəbərlər şöbəsi**

Yeni nəşrlər

# Sətir-sətir Vətən sevgisinin izi ilə




Bu gün tam əminliklə, böyük iftixarla və qürur hissi ilə deyə bilərik ki, günü-gündən gülüstana çevrilən, qədimlik və müasirliyin çiyin-çiyinə addımladığı diyarımız savadlı qələm sahiblərinə, jurnalistlərə günümüzün reallıqlarını tarixin səhiflərinə həkk etmək, onları gələcək nəsillərə miras qoymaq üçün yazıb-yaratmaq həvəsi verib. Elə bu mövzumuzun da qələmə alınma məqsədi oxucularımızı mətbuatımızın qocaman güzgüsü, yaradıcılıq salnaməsi olan "Şərq qapısı" qəzetinin Humanitar siyasət şöbəsinin müdiri, həmkarımız Ramiyyə Əkbərovanın yüzillik yubileyimizə itihaf etdiyi "Sətirlərə sığmayan Naxçıvan" kitabı ilə tanış etməkdir. Söz adamının sətir-sətir Vətən sevgisinin təsiri ilə qələmə aldığı bir-birindən maraqlı məqalələrin hər birində muxtar respublikamızın gündən-günə çiçəklənməsindən, tərəqqi və inkişafından, güclü ordu quruculuğundan, tarix-mədəniyyət abidələrinə ikinci həyatın verilməsindən, milli dəyərlərin qorunması və təbliğindən, insanların səmərəli məşğulluğundan, yüksək səviyyəli təhsil siyasətindən, şəhid qəhrəmanlarımızın şücaətindən, ədəbi mühitlə yanaşı, digər bütün sahələrin inkişafından dolğun və müfəssəl şəkildə məlumat verilərək oxuculara təqdim olunub. Kitab, ümumilikdə, jurnalistin ölkə və muxtar respublika mətbuatında dərc olunmuş, bir-birindən zəngin fotolarla müşayiət olunan publisist məqalələri, müsahibələri və yaradıcılıq nümunələri toplusudur. Redaktoru "Şərq qapısı" qəzetinin məsul katibi Muxtar Məmmədov olan kitabın ilk səhifəsində ulu öndər Heydər Əliyevin ***"Mən istəyirəm ki, mənim arzum, istəklərim, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin"*** dəyərli fikirləri yer alır. Həmçinin kitabın növbəti ikinci və üçüncü səhifələrində də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diyarımızla bağlı zəngin və hikmətamiz fikirləri ilə tanış oluruq. Kitabı vərəqlədikcə, elə ilk səhifələrdə müəllifin əməkdaşı olduğu yüzyaşlı "Şərq qapısı" qəzetinə həsr etdiyi "Dünənin və bu günün güzgüsü haqqında qeydlərim" adlı məqaləsi "qarşılayır" bizi.

Kitabın ilk fəslində – "Naxçıvan dünən və bu gün" adlı bölmədə muxtar respublikamızın müstəqillik illərindən öncə qarşılaşdığı ağır problemlər və son illərdə əldə etdiyi yüksək nailiyyətlər, inkişaf və tərəqqi dövrü bir-biri ilə qarşılaşdırılır. Buradakı məqalələrin hər biri Naxçıvanın dünən və bu gün müqayisəsinin öhdəsindən layiqincə gələn yaradıcılıq nümunələridir. Bu məqalələrdə ötən əsrin 90-cı illərində blokadanın və erməni təcavüzü nəticəsində muxtar respublikada bir sıra sahələrdə yaranan problemlər və ötən illər ərzində həmin problemlərin həlli istiqamətində həyata keçirilən kompleks tədbirlər müqayisəli şəkildə öz əksini tapıb. Oxucu kitabda təqdim olunan konkret faktlarla tanış olarkən ulu öndərimiz Heydər Əliyevin siyasi xəttinin sədaqətlə davam etdirilməsi nəticəsində Naxçıvanın dünəni ilə bu günü arasında çox böyük fərqin yarandığını, qədim diyarın müasirləşərək inkişaf etdiyini bir daha aydın şəkildə görür.

Kitabın ikinci fəslini təhlil edərkən bir hərbçi xanımı kimi müəllifin keçirdiyi hisslər açıqca oxucuya ayan olur. "Əfsanəyə dönən ömürlər" başlıqlı bu fəsildə Birinci Qarabağ müharibəsi şəhidlərindən olan Kərim Kərimov və Sədərək kəndində şəhadətə yüksələn Abbasəli Nəzərəliyev, o cümlədən 44 günlük şanlı Vətən müharibəsində şəhidlik məqamına çatan Naxçıvan igidlərinin mənalı ömür yolu həssaslıqla, böyük vətənpərvərlik hissi ilə qələmə alınıb. Məqalələrin hər birində müəllif rəşadətli ordumuzun şücaəti, Ali Baş Komandanın dəyanəti ilə mənfur düşmən üzərində cəmi 44 gün ərzində əldə etdiyimiz qələbəni, oxucularımıza, elə şəhidlərimizin sətirlərə sığmayan şücaətləri ilə çatdırmağa çalışıb. Vətənin bizim namusumuz, şərəfimiz, azadlığımız, mənliyimiz olduğunu vurğulayıb. İşğal altında olan torpaqlarımızın azad olunması uğrunda şəhadətə çatan Vətən oğullarının döyüş yolu barədə kitabda yer alan hər məqalədə bu yüksək vətənpərvərlik ideallları xüsusilə vurğulanıb.

Milli-mənəvi duyğuların, yurda bağlılıq hissinin və vətənpərvərlik məfkurəsinin təsiri ilə yazılmış "Ən ülvi duyğudur Vətən sevgisi" başlıqlı fəsildə müəllif bir-birindən maraqlı yaradıcılıq nümunələrinin dili ilə məmləkətimizin müstəqillik əldə etdikdən sonra ard-arda qazandığı uğurları, inkişaf və tərəqqini, o cümlədən dövlət-xalq-ordu birliyinin dövlətimizin timsalında yaratdığı ən gözəl nəticələri dolğun şəkildə işıqlandıra bilib. Bununla yanaşı, müəllifin qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqının hər zaman milli dəyərlərinə sadiqliyindən, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılmasından, Azərbaycan xalqının formalaşmasına təsirindən və milli dövlətçiliyimizin möhkəmləndirilməsindəki xüsusi rolundan bəhs etməsi də oxucularda rəğbət yaradır.

Son illər ərzində muxtar respublikamızın hər bir sahəsində olduğu kimi, yaşayış yerlərimizin də müasirliyə qovuşması, şəhərlərimizlə kəndlərimiz arasındakı fərqlərin aradan qaldırılması, kənd adamına göstərilən qayğı kitabın "İnkişaf edən bölgələrimiz", "Alın təri ilə sulanan torpaq qurumaz" başlıqlı fəsillərində cəmlənib. Bu bölmələrdə müəllif muxtar diyarımızın bütün yaşayış məntəqələrində gedən və öz simasını dəyişərək, sözün əsl mənasında, müasirlik donu geyinən yurd yerlərimiz haqqında məlumat verir.

"İnsan sağlamlığı cəmiyyətin sərvətidir", "Təhsil millətin gələcəyidir" adlı fəsillərdə həmkarımız, cəmiyyətin ən aktual mövzularından sayılan iki sahəni – təhsil siyasətini və sağlamlıq amilini diqqətə çatdırmaqla dövlətimizin diqqət və qayğısı ilə sözügedən iki sahədə də əldə edilən inkişaf və nailiyyətlərdən qürurla danışır.

"Naxçıvan mətbəxi və yurdumuzun nemətləri" bölməsində milli mətbəximizin təbliğinin, tədqiqinin, unudulmaqda olan milli mətbəx nümunələrinin toplanması işinin bu gün muxtar respublikada uğurla aparıldığı qeyd olunub.

Son olaraq "Müsahibələr və reportajlar, sərbəst" fəslində isə jurnalistika sahəsinin zəngin yaradıcılıq nümunələri ilə bir-birindən maraqlı yazılar qələmə alınıb.

*Kitabı oxuyub təhlil edərkən bir daha şahidi olduq ki, sahib olduğun peşəyə duyduğun sonsuz sevgi, zəhmətsevərlik və təşəbbüskarlıq ortalığa uğurlu nəticələr çıxarmağa rövnəq verir. Həmkarımız Ramiyyə Əkbərovanı yeni kitabının nəşri münasibətilə təbrik edir, bundan sonrakı fəaliyyətində də yaradıcılıq uğurları arzulayırıq.*

**Məcid RƏŞADƏTOĞLU**

## Narkotik qaçaqmalçılığı cəhdinin qarşısı alınıb




*Narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində Naxçıvan gömrükçüləri tərəfindən daha bir uğurlu əməliyyat həyata keçirilib.*

Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına, oradan da təyinat ölkəsi Belçika Krallığına gedən 36AA961 dövlət nömrə nişanlı "SCANIA" markalı nəqliyyat vasitəsinə Şahtaxtı dövlət sərhəd-buraxılış məntəqəsində rentgen qurğusu vasitəsilə baxış keçirilib və nəqliyyat vasitəsi sürücü tərəfindəki yanacaq çənində şübhəli təsvirlər olduğundan əsaslı yoxlamaya cəlb olunub.

Gömrük baxışı həyata keçirilən zaman əməkdaşların sayıqlığı nəticəsində nəqliyyat vasitəsinin yanacaq çənində xüsusi olaraq hazırlanmış və aşkarlanması çətinləşdirilmiş saxlanc yerində gizlədilmiş maye halında tünd-qəhvəyi rəngli təmiz çəkisi 242 kiloqram 280 qram olan narkotik vasitə – heroin aşkar olunub.

Qeyd olunan faktla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi açılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 13 dekabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| S/ № | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2447 | 1992 | 455 |
| 2. | Babək rayonu | 8432 | 5520 | 2912 |
| 3. | Ordubad rayonu | 703 | 168 | 535 |
| 4. | Culfa rayonu | 4476 | 3796 | 680 |
| 5. | Kəngərli rayonu | 4908 | 2718 | 2190 |
| 6. | Şahbuz rayonu | 1198 | 982 | 216 |
| 7. | Sədərək rayonu | 1929 | 583 | 1346 |
| 8. | Naxçıvan şəhəri | 723 | 515 | 208 |
| | **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | **24816** | **16274** | **8542** |

## Dünya çempionatından bürünc medal



Rusiyanın Nijnevartovsk şəhərində Sibirdə nefti kəşf edən həmyerlimiz Fərman Salmanovun xatirəsinə həsr olunmuş Neft Ölkələrinin Dünya Kuboku keçirilib. 6-12 dekabr tarixlərdə 18-ci dəfə təşkil edilən yarışda Azərbaycan millisinin boksçuları da güclərini yoxlayıblar.

Mundialda iştirak edən millimizin heyətində Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirməsi Eldar Quliyev də çıxış edib. 86 kiloqram çəki dərəcəsində rinqə çıxan dəri əlcək sahibimiz ilk mərhələdə Tacikistan boksçusunu məğlub edib. Digər mərhələlərdə rusiyalı iki idmançını məğlub edən Eldar Quliyev yarımfinalda məğlub olub və bürünc medal qazanıb.

Sonda idmançımız təşkilatçılar tərəfindən diplom, medal və kubokla təltif edilib.

## Region Liqası davam edir



Futbol üzrə Azərbaycan Region Liqasının Naxçıvan zonasında növbəti turun oyunları keçirilib.

Şərur Olimpiya İdman Kompleksinin stadionunda yerli "Arpaçay" komandası Ordubadın "Dübəndi" komandasını qəbul edib. İlk hissəsi qolsuz heç-heçə ilə başa çatan görüşün son 15 dəqiqəsində 3 qol vuran şərurlular meydanı 3:1 hesablı qələbə ilə tərk ediblər. Həmin arenada keçirilən digər oyunda isə azarkeşlər daha maraqlı oyuna şahidlik ediblər. "Babək" komandasını qəbul edən "Kəngərli" komandası məğlubiyyətdən yaxa qurtara bilməyib – 0:1.

Uzunoba Təlim-Məşq İdman Kompleksində Culfanın "Əlincə" komandası Şahbuzun "Batabat" komandasını qəbul edib. Görüş culfalıların 7:2 hesablı qələbəsi ilə başa çatıb. "Araz-Naxçıvan"-"Sədərək" oyunu isə təxirə salınıb və bu həftə keçiriləcək.

**Ceyhun MƏMMƏDOV**

## Profilaktik tibbi müayinələr aparılıb

Naxçıvan Muxtar Respublika Xəstəxanasının müxtəlif ixtisaslardan ibarət həkim briqadası tərəfindən Kəngərli rayonunun Qıvraq qəsəbəsi və kəndlərində 2 günlük humanitar tibbi aksiya keçirilib. Aksiya zamanı 75-85 yaşlı ahıl vətəndaşlar və yataq xəstələri tibbi müayinələrə cəlb edilib. Onlara oftalmoloji, uroloji, endokrinoloji, nevropatoloji və digər tibbi xidmətlər göstərilib.

Xəstəxanaya gələ bilməyən ahıl və yataqda olan 67 xəstəyə evlərində tibbi xidmət göstərilib. Gün ərzində laborator təhlillər, ultrasəs müayinəsi aparılıb. Ahıl və yataq xəstələri başqa yerlərə getmədən, ev şəraitində müayinə olunduqlarına görə minnətdarlıq edib, bütün bunları əhalinin sağlamlığının qorunmasına yönəldilmiş təşəbbüslərin uğurlu icrası kimi dəyərləndiriblər.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar Naxçıvan Muxtar Respublikasında keçiriləcək məhsul yarmarkası haqqında məlumat

1. Yarmarkanın keçiriləcəyi tarix: 25-30 dekabr 2021-ci il
2. Yarmarkanın keçiriləcəyi yer: Naxçıvan şəhəri, Xətai küçəsində yerləşən Mərkəzi bazar
3. Yarmarkada iştirak edənlər: Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli və Sədərək rayonları (istehsalçılar, fermerlər və ailə təsərrüfatları)
4. Yarmarkada satışa çıxarılacaq məhsullar: 600-dən çox çeşiddə sənaye məhsulları, kənd təsərrüfatı məhsulları, ailə təsərrüfatlarında istehsal olunan məhsullar, diri heyvanlar, quşlar və balıq.

**Qeyd:** Yarmarka 25 dekabr tarixdən başlayaraq hər rayon mərkəzində bir gün təşkil olunacaqdır.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***

### *İtmişdir*

Hüseynov Rəşad Naib oğlunun adına olan 75-AF-351 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Kültəpə kənd sakini Rzayev Vəli Təhməz oğlunun adına olan JN-387$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Kürçülü kənd sakini Ağayev Samil Bəhman oğlunun adına olan JN-64$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Kosacan kənd sakini Şəfiyev Nadir Şıxəli oğlunun adına olan JN-85$^{C\text{-}A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Kültəpə kənd sakini Cəfərov Əsgər Hüseyn oğlunun adına olan JN-248$^{A}$ və JN-248$^{B}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Kültəpə kəndində yaşamış Cəfərova Müşgünaz Alı qızının adına olan JN-287$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Telli Məmmədova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1043